

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 238 (24.375)

22 dekabr 2023-cü il, cümə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa və Xocalı rayonlarında görülən işlərlə tanış olub

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xankəndi stadionunda Ağdamın "Qarabağ" və Bakının MOİK futbol komandalarının görüşünü izləyib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Şuşa şəhərində 23 binadan ibarət ilk yeni yaşayış kompleksində, Şuşa şəhərinin Qarabağ küçəsində aparılan tikinti işləri, Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri və Şuşa rayonunun Daşaltı kənd məscidində aparılan tikinti işlərinin gedişi ilə tanış olub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Xocalı rayonunun Dağdağan kəndində olub. Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirib.

***

Bu gün xalqımız tarixi hadisəyə şahidlik edir. Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları üz-üzə gəlir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oyuna baxmaq üçün stadiona gəliblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Dövlətimizin başçısı oyundan əvvəl stadionda çıxış etdi.







**Prezident İlham Əliyevin çıxışı**

– Əziz dostlar, Xankəndiyə xoş gəlmisiniz!

İlk dəfədir ki, işğaldan azad edilmiş ərazilərdə futbol matçı keçirilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu gün qəhrəman şəhidlərimizin uşaqları, ailə üzvləri bizim yanımızdadır. Gəlin hamımız birlikdə onları salamlayaq.

Bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var. Xankəndi qədim Azərbaycan diyarıdır. Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır. Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar. Bu şəhər separatizmin rəmzinə çevrilmişdi. Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu bizim tarixi, əzəli torpağımızdır. Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq.

Üç ay bundan əvvəl Xankəndi işğaldan azad edildi. Birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir, bu gün bütün Qarabağ bölgəsində Azərbaycan Bayrağı dalğalanır. Bu, böyük tarixi hadisədir və bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfər ilə bundan sonra əbədi fəxr edəcəklər.

Biz – bu torpaqların sahibləri qurub-yaradırıq, o cümlədən Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş quruculuq-abadlıq işləri aparılır. Bu stadion cəmi iki ay ərzində, demək olar ki, yenidən inşa edilmişdir, əsaslı təmir olunmuşdur. Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atıldı. Bütün başqa şəhərlər kimi, bu gün Ağdam şəhəri də yenidən qurulur. O cümlədən bir neçə aydan sonra Ağdam şəhərində "İmarət" stadionunun yenidən inşa edilməsinə başlanılacaq.

Bugünkü oyunun nəticələrindən asılı olmayaraq, qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir! Bugünkü oyunda "Qarabağ" və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması, təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ-Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir.

Əziz dostlar, dörd il bundan əvvəl bu stadionda bəziləri "Qarabağ Ermənistandır və nöqtə" demişdilər. Biz onlara sübut etdik ki, Qarabağ Azərbaycandır!

İşğal edilmiş torpaqların böyük hissəsi üç il bundan əvvəl – İkinci Qarabağ müharibəsi nəticəsində işğalçılardan azad edildi. Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan Bayrağı qaldırıldı. Üç ay bundan əvvəl – sentyabrın 19-20-də Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə rayonları da işğalçılardan azad edildi. Oktyabrın 15-də bütün bu şəhərlərdə mən Azərbaycan Bayrağını ucaltdım. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradı keçirildi. Bu gün isə bu gözəl idman bayramını biz birlikdə qeyd edirik.

Bundan sonra bu torpaqlarda Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq! Yaşasın Qarabağ! Yaşasın şanlı Ordumuz! Qarabağ Azərbaycandır!




***

Sonra Ulu Öndər Heydər Əliyevin idmançılarla görüşləri, idmanla bağlı fikirləri barədə videoçarx nümayiş olundu.

Stadiona daxil olan dövlətimizin başçısı futbolçularla və oyunu idarə edən hakimlərlə görüşdü, onlarla xatirə şəkli çəkdirdi.

Prezident İlham Əliyevin topa rəmzi toxunuşundan sonra "Qarabağ"-MOİK görüşü başladı.

Maraqlı idman mübarizəsi şəraitində keçən görüş "Qarabağ" komandasının 1:0 hesablı qələbəsi ilə başa çatıb. "Qarabağ"ın futbolçusu Nəriman Axundzadənin matçın əsas vaxtına əlavə olunmuş 3-cü dəqiqədə vurduğu qol oyunun taleyini həll edib. Bununla da N.Axundzadə işğaldan azad olunmuş ərazilərdə 30 ildən sonra keçirilən ilk futbol matçında fərqlənən hücumçu kimi tarixə düşüb.

***

Dekabrın 21-də Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında keçirilən oyunun fasiləsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşüb.

Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

– Xoş gəlmisiniz Xankəndiyə!

İdmançılarla ənənəvi görüşü bu il Xankəndidə keçiririk. Bunun çox böyük mənası var. Sizi, ilk növbədə, əldə edilmiş uğurlar münasibətilə təbrik etmək istəyirəm. Siz öz zəhmətinizlə dövlətimizin idman şöhrətini göylərə qaldırmısınız və Azərbaycan dövləti də sizi mükafatlandırmaqda tam haqlıdır, çünki siz buna layiqsiniz.

Bu gün burada düzülən mükafatlar, mənzillərin orderləri, digər mükafat növləri sizə işğaldan azad olunmuş Xankəndi şəhərində tarixi futbol matçının fasiləsində təqdim edilir. Bu münasibətlə sizi ürəkdən təbrik etmək istəyirəm.

Yarışlar çox olub. Ancaq bugünkü yarış tarixdə əbədi qalacaq, həm xalqımız üçün, dövlətimiz üçün, dünya üçün. Dünyada hələ ki, belə bir nümunə olmayıb ki, xalq, dövlət öz torpağını – uzun illər işğal altında olmuş torpaqları döyüş meydanında qan tökərək, şəhidlər verərək azad etsin, qursun, yaratsın və cəmi üç ildən sonra artıq azad edilmiş torpaqlarda futbol matçı keçirilsin, vətəndaşlar Bakıdan, digər yerlərdən gəlib buna tamaşa etsinlər və qürur hissi yaşasınlar. Biz tarix yazmışıq, yazırıq və bu gün dediyim kimi, Xankəndi cəmi üç ay bundan əvvəl azad edilmişdir, ancaq artıq Xankəndi – Azərbaycan şəhəri olan Xankəndi yaşayır və dirçəlir.

Mən bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Mən sizi buraya dəvət etməklə sizə öz münasibətimi, hörmətimi bildirmək istəmişəm. Bu görüşü biz Bakıda da keçirə bilərdik. Ancaq hesab etdim ki, bu görüşün burada keçirilməsi və sizə bu yüksək mükafatların burada verilməsi tam ədalətli olacaqdır. Bir daha təbrik edirəm.

***

Sonra xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

# Azərbaycan Fövqəladə Hallar Nazirliyi Naxçıvan şəhərində "Heydər Əliyev İli"nə həsr olunan tədbir keçirib





Dekabrın 21-də Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycanın fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli və nazirliyin əməkdaşları iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyaraq, Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Sonra Heydər Əliyev Muzeyi ziyarət edilib. Tədbir iştirakçıları Ümummilli Liderin zəngin dövlətçilik və ictimai-siyasi fəaliyyəti, o cümlədən həyatının Naxçıvan mərhələsi, muzeyin tarixi, burada qorunan fotoşəkil və eksponatlarla yaxından tanış olublar.

Heydər Əliyev Sarayında keçirilən tədbirdə Dövlət Himninin səsləndirilməsindən sonra nazirliyin İctimaiyyətlə əlaqələr idarəsi tərəfindən hazırlanmış "Azərbaycan tarixinin Heydər Əliyev zirvəsi" filmi nümayiş olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbir iştirakçılarını Naxçıvanda görməkdən məmnunluğunu bildirərək deyib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına uyğun olaraq Ümummilli Liderimiz



Heydər Əliyevin anadan olmasının 100 illiyi ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında silsilə tədbirlərlə qeyd olunur, dahi şəxsiyyətin ömür yoluna və çoxşaxəli dövlətçilik fəaliyyətinə hərtərəfli nəzər salınır.

Səlahiyyətli nümayəndə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən Naxçıvanda Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə keçirilən tədbirin əhəmiyyətini vurğulayaraq təşkilatçılara təşəkkür edib.

Bildirib ki, Ulu Öndər Heydər Əliyev ömrünü xalqına və Vətəninə həsr etmiş, Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin əsasını qoymuşdur. İstər sovetlər birliyi, istərsə də müstəqillik dövründə Ümummilli Liderin ömür yolu, bütövlükdə, Azərbaycana xidmətdən ibarət olmuşdur. Heydər Əliyev ölkəmizi düşdüyü ağır siyasi, iqtisadi və sosial böhran vəziyyətindən çıxararaq dövlətçiliyimizi və müstəqilliyimizi qorumuşdur. 1970-1980-ci illərdə Azərbaycan İttifaqın qabaqcıl respublikasına çevrilmiş, yeni zavodlar, məktəblər, nəhəng meliorasiya və irriqasiya sistemləri istifadəyə verilmiş, iqtisadiyyatın bütün sahələrində canlanma müşahidə olunmuş, milli məfkurənin yüksəlişi, söykökümüzə və dəyərlərə qayıdışın əsası qoyulmuşdur.

Fuad Nəcəfli qeyd edib ki, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərən Ümummilli Liderimiz müstəqil dövlətçiliyimizin əsaslarını burada formalaşdırıb. Onun rəhbərliyi ilə Naxçıvan



parlamentinin 1990-cı il noyabrın 17-də keçirilən iclasında muxtar respublikanın adından "sovet, sosialist" sözləri çıxarılmış, Ali Sovetin adı dəyişdirilərək Ali Məclis adlandırılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiqlənmişdir. Həmin dövrdə Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanda qəbul olunmuş qərarlar – sovet qoşunlarının silah-sursatları saxlanılmaq şərtilə Naxçıvandan çıxarılması, ilk milli ordu qurumunun yaradılması, Yeni Azərbaycan Partiyasının təsis olunması, milli birlik və həmrəyliyimizin əsasının qoyulması və digər bu kimi tədbirlər müstəqil dövlətçilik tariximizin ən mühüm mərhələsini təşkil edir.

O illərdə Naxçıvanda Ümummilli Liderin rəhbərliyi ilə bu mütərəqqi addımlar atılarkən, prosesin əksinə olaraq ölkəmiz, bütövlükdə, naşı adamların əlində vətəndaş müharibəsinə sürüklənir, torpaqlarımız işğal olunur, siyasi və iqtisadi böhran daha da dərinləşirdi. Məhz belə bir vəziyyətdə xalqımız Ümummilli Lider Heydər Əliyevə üz tutdu, onu yenidən ölkə rəhbərliyinə dəvət etdi. Hətta o zaman ölkəyə "rəhbərlik" edən qüvvələr də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün Ulu Öndərin siyasi hakimiyyətə gəlməsini yeganə çıxış yolu kimi qəbul etdilər.

Beləliklə, 1993-cü il iyunun 9-da Ulu Öndər xalqın təkidli tələbi ilə Naxçıvandan Bakıya gəldi və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bununla da həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. 1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Ümummilli Lider Heydər Əliyevin xalqımızın böyük əksəriyyətinin etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilməsi isə ölkəmizdə yeni inkişaf dövrünün əsasını qoydu.

"1993-2003-cü illərdə dahi şəxsiyyətin rəhbərliyi ilə müstəqilliyimiz qorunub saxlanılmış, torpaqlarımızın işğalının qarşısı alınmış, sosial-iqtisadi inkişaf strategiyasının əsası qoyulmuş, ordu quruculuğuna başlanılmış, vətəndaş həmrəyliyi təmin olunmuşdur", – deyən səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, həmçinin ölkəmizdə mütərəqqi dövlət idarəçiliyi sistemi formalaşdırılmış, qanunvericilik bazası zənginləşdirilmiş, əhalinin rifahı yüksəldilmiş, təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin əsası qoyulmuşdur. Milli həmrəylik və bütövlüyü ehtiva edən Azərbaycançılıq məfkurəsi dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsi kimi milli ideologiyamızı formalaşdırmış, ölkəmizdə davamlı sabitliyə nail olunmuşdur. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanda yeni sosial-iqtisadi inkişaf strategiyası həyata keçirilmiş, "Əsrin müqaviləsi" imzalanmış, ölkəmizə böyük həcmdə investisiyalar cəlb edilmiş, istehsal müəssisələri yaradılmış, iş yerləri açılmış və əhalinin məşğulluğu təmin edilmişdir. Bu dövrdə ümumi daxili məhsul istehsalında və digər makroiqtisadi göstəricilərdə artıma nail olunmuş, əhalinin rifahı yüksəlmişdir.

Bu, bir həqiqətdir ki, Heydər Əliyevin siyasi xətti Azərbaycandakı güclü dövlətçiliyin, ictimai-siyasi sabitliyin və iqtisadi inkişafın əsas təminatıdır. Bu gün fəxr edirik ki, Ümummilli Liderin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İqtisadiyyatın bütün istiqamətləri üzrə həyata keçirilən inkişaf konsepsiyası, ümumilikdə, ölkəmizin müstəqilliyini və dövlətçiliyini, xalqımızın milli birliyini, mövcud ictimai-siyasi sabitliyi ilbəil möhkəmləndirir. Dövlət başçısının təşəbbüsü ilə reallaşdırılan transmilli layihələr və beynəlxalq nəqliyyat dəhlizləri Azərbaycanın regional və beynəlxalq enerji təhlükəsizliyinin əsas təminatçısı kimi rolunu artırıb.

"Ötən 20 ildə cənab İlham Əliyev tərəfindən həyata keçirilən milli inkişaf doktrinasının əsas hədəfində, ilk növbədə, insan amili, hər bir Azərbaycan vətəndaşının yüksək həyat şəraiti ilə təmin olunması dayanır", – deyən Fuad Nəcəfli bildirib ki, bunun nəticəsidir ki, ölkəmizdə güclü bazaya malik iqtisadi sistem qurulmuş, makroiqtisadi göstəricilərdə, ümumi daxili məhsulda və valyuta ehtiyatlarında dəfələrlə artıma nail olunmuşdur.

Vurğulanıb ki, ordu quruculuğu cənab İlham Əliyevin fəaliyyətində əsas hədəf kimi müəyyənləşdirilmişdir. Silahlı Qüvvələrimizin maddi-texniki bazasının, döyüş qabiliyyətinin və peşəkarlığının davamlı artırılması, döyüş arsenalının müasirləşdirilməsi son nəticədə güclü müdafiə potensialı formalaşdırmaqla yanaşı, həm də 30 illik işğala son qoydu, torpaqlarımız azad olundu. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirlərində Azərbaycanın ərazi bütövlüyü və tarixi ədalət bərpa olundu. Bununla da Müzəffər Ali Baş Komandan ən mühüm missiyaya – ata vəsiyyətinə əməl etdi, Ümummilli Liderimiz Heydər Əliyevin arzularını reallaşdırdı.

Fuad Nəcəfli çıxışının sonunda qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəaliyyətinin hər bir dövrü qürur və şərəf tariximizdir. Müdrik dövlət xadiminin siyasi irsi müstəqil Azərbaycanın dünəni, bu günü və gələcəyidir. İllər, əsrlər keçəcək, lakin bir həqiqət heç vaxt dəyişilməyəcəkdir: bu da Azərbaycan var olduqca yaşayacaq Heydər Əliyev ideyalarıdır.

Tədbirdə çıxış edən fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov xalqımızın böyük oğlu Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolundan, Vətən qarşısında tarixi xidmətlərindən danışıb. 100 illik yubileyinin ölkəmizin hər yerində və onun hüdudlarından kənarda yüksək ehtiram və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunduğunu bildirən nazir, varlığında bütöv bir millətin ruhunu yaşadan, şəxsiyyətində xalqın ən gözəl keyfiyyətlərini cəmləşdirən dahi rəhbərin həyatını öz xalqına həsr etdiyini xatırladıb. "Ulu Öndərin çoxşaxəli fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz, şərəfli bir hissəsini təşkil edir. Onun qurub yaratdıqları, müdrik ideyaları, müqəddəs irsi təkcə dünənimiz və bu günümüz üçün deyil, eyni zamanda gələcəyimiz üçün də əvəzsizdir".

Ulu Öndərin müqəddəs yolunu uğurla davam etdirən, ata vəsiyyətini şərəflə yerinə yetirən ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərin ardınca "Heydər Əliyev İli"ndə – bu ilin sentyabr ayında cəmi 23 saat davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində dövlət suverenliyinin tam bərpa edilməsini qürur hissilə diqqətə çatdırıb. Nazir oktyabrın 15-də, ilk dəfə Prezident seçilməsinin 20-ci ildönümündə Xankəndi, Xocavənd, Xocalı və Ağdərə şəhərlərində, Əsgəran qəsəbəsində, Sərsəng su anbarının ərazisində Azərbaycanın Dövlət Bayrağını ucaltmasını Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin xalqımıza bəxş etdiyi tarixi Zəfərin, qələbənin zirvə nöqtəsi adlandırıb. Qeyd edib ki, dövlətimizin başçısının tarixi Zəfərə həsr olunmuş möhtəşəm hərbi paradı noyabrın 8-də Xankəndi şəhərində keçirməsi və paradda qətiyyətli çıxışı Azərbaycan xalqını, Dünya Azərbaycanlılarını, bütün Türk Dünyasını hədsiz dərəcədə qürurlandırıb. Bu gün Azərbaycan dünyanı həm də azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işləri, nəhəng infrastruktur layihələri ilə heyrətləndirir.

*Ardı 3-cü səhifədə*




















Müstəqil ölkəmizin inkişafı, tərəqqisi naminə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük xidmətləri vardır.

Çıxışında tarixə ekskurs edən Kəmaləddin Heydərov 1969-cu ildə respublika rəhbərliyinə gəldiyi ilk günlərdən etibarən xalqının rihafı və inkişafı yolunda mühüm nailiyyətlərə imza atan Ulu Öndər Heydər Əliyevin Azərbaycanın gələcək müstəqilliyi yolunda real addımlar atdığını qeyd edib. Sovetlər birliyində yaşadığımız illərdə Azərbaycan dilinə dövlət dili statusunun verilməsinin Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biri olduğunu deyən nazir bununla Dahi Rəhbərin gələcək müstəqil dövlətçiliyimizin milli atributunu məharətlə qoruduğunu vurğulayıb. O illərdə Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması olub.

Fövqəladə hallar naziri xatırladıb ki, ötən əsrin 80-ci illərində yeganə azərbaycanlı olaraq yüksək vəzifələrdə çalışan Ulu Öndər SSRİ rəhbərliyinin yol verdiyi ciddi qüsurlara, şovinizmə, millətçiliyə, separatizmi dəstəkləməklə millətlərarası münaqişələrin qızışdırılmasına, açıq anti-Azərbaycan siyasətinə qarşı çıxıb, prinsipial mövqe nümayiş etdirib. Vəzifədə olmadığı vaxtda bir xilaskar kimi 20 Yanvar faciəsinin törədildiyi günün səhərisi bütün təzyiqlərə baxmayaraq, Moskvada Azərbaycan həqiqətlərini beynəlxalq aləmə bəyan edən, doğma xalqını milli-siyasi fəlakət burulğanından xilas etmək üçün 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Ulu Öndər əvvəl Bakıya, sonra isə Naxçıvana gələrək Qurtuluş missiyasını davam etdirib.

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışdığı 1991-93-cü illəri muxtar respublikanın sosial-iqtisadi inkişafının çətin, eyni zamanda əlamətdar dövrü kimi xarakterizə edən Kəmaləddin Heydərovun sözlərinə görə, bu dövrdə Ulu Öndər Naxçıvanda bir tərəfdən erməni işğalçıları ilə mübarizəyə şəxsən rəhbərlik edir, digər tərəfdən, ağır blokada şəraitində olan muxtar respublikanın iqtisadi durumunun, əhalinin vəziyyətinin yaxşılaşdırılması istiqamətində vacib tədbirlər həyata keçirirdi. Naxçıvandakı sovet qoşunlarının arsenalının bütünlükdə muxtar respublikanın dövlət orqanlarının nəzarəti altında təhvil-təslimini təmin edən Heydər Əliyev burada Azərbaycan Ordusunun güclü birləşmələrini formalaşdırıb və ermənilərin hücumlarına qətiyyətlə cavab verilib. Ulu Öndərin bilavasitə təşəbbüsü ilə Ali Məclis muxtar respublikanın adından “sovet, sosialist” sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması haqqında tarixi qərarlar qəbul edib, 31 dekabr gününü Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi əbədiləşdirib.

“1990-cı illərin əvvəli ölkəmizin müasir tarixində hərc-mərclik, qeyri-peşəkar idarəetmə, xaos və anarxiya dövrü kimi xatırlanır”, – deyə sözünə davam edən nazir bildirib ki, xalq ən ağır günlərini yaşadığı bir zamanda öz Xilaskarını – sevimli oğlu, dahi şəxsiyyət Heydər Əliyevi ölkəni idarə etməyə təkidlə çağırdı. Ulu Öndərin bu qayıdışı ilə Azərbaycan dövlətçiliyinin mövcudluğuna, müstəqilliyinə böyük təhlükə olan dövlət çevrilişi cəhdlərinə son qoyulub, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırılıb, cəbhədə atəşkəsə nail olunub, ölkəmizin sivil formada dövlətlərarası əlaqələr sisteminə qoşulması istiqamətində uğurlu addımlar atılıb. Qısa zamanda ölkəmizdə müstəqil dövlət təsisatları yaradılıb, demokratik prinsiplər bərqərar olub, Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasətə əsaslanan xətlə inkişaf etməyə başlayıb. Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi 10 il Azərbaycanın ən yeni tarixinə sosial-iqtisadi yüksəliş dövrü kimi yazılıb. Bu illər ərzində ictimai-siyasi sabitlik və təhlükəsizlik təmin olunub, dövlət idarəçiliyi mexanizmi yenidən yaradılıb, genişmiqyaslı islahatlar həyata keçirilib, ölkəyə xarici sərmayələr cəlb edilib və ölkə iqtisadiyyatının dinamik inkişafı təmin edilib. Bu illərdə Heydər Əliyevin gərgin zəhmət, əzm, zəngin siyasi təcrübə, möhkəm iradə və ən əsası, hədsiz Vətən sevgisi sayəsində reallaşdırdığı nəhəng işlər Azərbaycan tarixinə silinməz qızıl hərflərlə yazılıb.

Fövqəladə hallar naziri Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə son 20 il ərzində həyata keçirilən uğurlu, səmərəli daxili və xarici siyasət nəticəsində müstəqil və suveren Azərbaycan Respublikasının hazırda müasir dünyanın aparıcı dövlətləri ilə bir sırada inamla irəlilədiyini, özünün iqtisadi, siyasi və hərbi qüdrəti ilə qarşıya çıxan problemin həllinə nail olduğunu iftixar hissi ilə dilə gətirib: “Möhtərəm Prezidentimizin titanik fəaliyyəti və milli maraqlara söykənən siyasəti nəticəsində Vətən müharibəsində qazanılan möhtəşəm zəfər bu uğurların məntiqi nəticəsidir. Əminliklə demək olar ki, xalqımız 7 fevral 2024-cü ildə növbədənkənar prezident seçkilərində yenidən qalib Prezidentinə, müzəffər Ali Baş Komandanına yekdilliklə səs verməklə daha böyük hədəflərə nail olacaqdır”.

Çıxışının sonunda nazir Kəmaləddin Heydərov vurğulayıb ki, Fövqəladə Hallar Nazirliyinin kollektivi Ümummilli Lider Heydər Əliyevin ideyalarına, dövlətçilik xəttinə sadiq qalaraq bundan sonra da bütün qüvvə və bacarığını müstəqil respublikamızın yüksəlişi, tərəqqisi naminə səfərbər edəcəkdir.

Tədbirdə digər çıxış edənlər Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən danışıb, müasir Azərbaycan dövlətinin Heydər Əliyevin şah əsəri olduğunu iftixar hissi ilə dilə gətiriblər.

Tədbir bədii hissə ilə davam edib.

**“Şərq qapısı”**

# İbtidai sinif müəllimlərinin Naxçıvan forumu keçirilib






Naxçıvan şəhərində dekabrın 21-də Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan İbtidai sinif müəllimlərinin Naxçıvan forumu keçirilib.

Forumda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək Naxçıvanda ilk dəfə təşkil olunan forumun işinə uğurlar arzulayıb. Fuad Nəcəfli bildirib ki, forumda Heydər Əliyevin təhsil sahəsindəki əvəzsiz xidmətləri bir daha təhlil olunsun, bu sahədə müəyyənləşdirdiyi vəzifələr prioritetləşdirilərək əsas fəaliyyət istiqaməti kimi götürülsün. Belə ki, sovetlər birliyi dövründə Ulu Öndərin rəhbərliyi ilə digər İttifaq respublikalarından fərqli olaraq Azərbaycanda təhsil milli maraqlara uyğunlaşdırılmış, hərbi təhsil sisteminin və milli kadr hazırlığının əsası qoyulmuşdur. Bununla yanaşı, ötən əsrin 70-ci illərində Azərbaycanda gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq, ümumtəhsil məktəblərini daha da inkişaf etdirmək və kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında qərarların qəbul olunması ölkəmizdə orta məktəb şəbəkəsini genişləndirmiş, ümumtəhsil məktəblərinin sayı üç dəfədən çox artmış, əsaslı keyfiyyət dəyişikliyinə nail olunmuşdur.







Fuad Nəcəfli qeyd edib ki, müstəqillik dövründə də Ulu Öndərin rəhbərliyi ilə sosial-iqtisadi həyatın bütün istiqamətlərində, o cümlədən təhsil sahəsində yeni dövrün tələblərinə uyğun islahatlar həyata keçirilmiş, zəngin qanunvericilik bazası yaradılmış, təhsil sisteminin maddi-texniki bazası yaxşılaşdırılmışdır. Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyası həyata keçirilmiş, təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, kadr hazırlığı və təminatında əsaslı dəyişikliyə nail olunmuşdur.

Səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, təhsilin inkişafı sahəsində ölkəmizdə qazanılan nailiyyətlər, formalaşan intellektual potensial dahi şəxsiyyətin müəllifi olduğu təhsil strategiyasının bəhrələridir. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev təhsil quruculuğunu və insan kapitalının formalaşdırılmasını başlıca hədəf kimi müəyyənləşdirmişdir. Azərbaycanda genişmiqyaslı və əhatəli təhsil islahatları həyata keçirilir. Ölkəmizdə iqtisadi inkişafla yanaşı, ixtisaslı kadr hazırlığı, sağlam və təhsilli gəncliyin, ən əsası isə insan kapitalının formalaşdırılması da dövlət siyasətinin başlıca hədəfidir. Ölkə Prezidenti bu reallığı düzgün qiymətləndirərək təhsilyönümlü inkişaf üçün geniş imkanlar yaradır.






Fuad Nəcəfli vurğulayıb ki, təhsil inkişaf edirsə, demək iqtisadiyyatın bütün sahələri inkişaf edir. Əks təqdirdə heç bir nailiyyətdən danışmaq olmaz. Hazırda muxtar respublikada bu reallıq düzgün dəyərləndirilir, təhsil islahatlarının əhatə dairəsi genişləndirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda təhsil sahəsində mühüm tədbirlərin müəyyənləşdirilməsi də bu məqsədə xidmət edir. Dövlət Proqramında yeni məktəb binalarının tikilməsi, əmək bazarının tələblərinə cavab verən müasirtipli peşə məktəblərinin yaradılması, ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin artırılması, təhsil sahəsi üzrə dövlət xidmətlərinin inkişaf etdirilməsi başlıca hədəf kimi götürülmüşdür. Artıq nəzərdə tutulan bir çox tədbirlərin icrasına başlanılıb ki, bütün bunlar da muxtar respublika təhsilinin inkişafında yeni mərhələnin əsasını qoyacaqdır.

Səlahiyyətli nümayəndə bildirib ki, təhsilin əsasını müəllim əməyi və müəllim peşəkarlığı təşkil edir. Tarixin bütün dövrlərində müəllim adı fədakarlıq, vətənpərvərlik, gələcəyə cavabdehlik anlayışları ilə eyniləşdirilmişdir. Bu mənada, müəllimlərin üzərinə mühüm vəzifələr düşür. Yaşadığımız dövrdə peşəsini sevən, gəncliyə qayğı ilə yanaşan kamil müəllimlərə böyük ehtiyac vardır. Çünki ölkəmizin gələcəyi sizin fəaliyyətinizdən, verəcəyiniz təhsil və tərbiyənin səviyyəsindən asılıdır. Dünyagörüşlü, yenilikləri qiymətləndirməyi bacaran, savadlı və vətənpərvər gənclər yetişdirmək qarşınızda duran əsas vəzifələrdir. Ümummilli Liderimiz Heydər Əliyev də deyirdi: ***“Azərbaycan müəllimlərinin bir məqsədi, bir amalı olmalıdır: Azərbaycanımızı çiçəklənən, inkişaf etdirən, firavan, qüdrətli bir dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü Vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək”.*** Ölkə Prezidenti cənab İlham Əliyev də təhsilin inkişafını müəllimlərin fəaliyyəti ilə bağlayaraq demişdir: ***“Təhsilin səviyyəsi müəllimlərin peşəkarlığından asılıdır”.*** Doğrudan da, müəllim peşəkar və tələbkar deyilsə, onda yaradılan ən müasir tədris şəraitinin də heç bir mənası yoxdur.

Fuad Nəcəfli İbtidai sinif müəllimlərinin Naxçıvan forumunun sadalanan ali məqsədləri diqqətə alaraq təhsilin inkişafında yeni hədəflərin müəyyənləşdirilməsi işinə öz töhfəsini verəcəyinə inandığını vurğulayıb.

Forumda Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini, təhsil nazirinin səlahiyyətlərini müvəqqəti icra edən Elxan Nəcəfov çıxış edərək təhsilin gələcək prioritetləri, təhsilalanların sertifikasiya prosesinin təhsil sisteminin keyfiyyətinə təsirindən, təhsil sisteminin yaxşılaşması istiqamətindən bəhs edib.

Daha sonra Nazim Bababəyli, Aqil Kazımzadə və İltifat Bektaşi gələcəyimizin qayğısına qaldıqları üçün “Nəsib bəy Yusifbəyli” adına mükafatla təltif olunublar. Azərbaycan Dövlət Pedaqoji Universitetinin strateji inkişaf məsələləri üzrə prorektoru Könül Pirverdiyeva, institutun müəllimləri Yulya Kərimova və Leyla Abbaslı müəllimlərin inkişafına dəstək olmaq, onları maarifləndirmək üçün maraqlı mövzularla çıxış ediblər. Spikerlərin çıxışları təhsilin önəmi, bununla bağlı atılan addımlar və müxtəlif yanaşmalarla bağlı olub, dinləyicilərin yeni, faydalı məlumatlar almasına kömək edib.

Milli Məclisin deputatı, Naxçıvan Gənclər Fondunun icracı direktoru Cəbi Quliyev və forumun təşkilat komitəsinə sədrlik edən “Çinar Yayımları” nəşriyyatının təsisçisi Bəhram Oruclu da fikirlərini bölüşüblər.

Forumda Azərbaycan Kitab, Maarif və Poliqrafçılar İctimai Birliyinin ilk dəfə təsis etdiyi “Maarifçi təqaüdü” birliyin sədri Tural Axundov tərəfindən Naxçıvandan olan iki şəhid övladına təqdim olunub. İlk təqaüdçülər şəhid Sadiq Həsənovun qızı Lalə Həsənzadə və şəhid Elməddin Meydanovun oğlu Əli Meydanlı olub. Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının sədri Rüfət Əsədzadə İSMF təşkilat komitəsi tərəfindən Təhsilverənlərin sertifikatlaşdırılması imtahanında 95 faizdən yüksək nəticə göstərən, təhsil sahəsində uğur qazanmış müəllimlərə “Uğur” mükafatını verib.








Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Naxçıvan Gənclər Fondu, Azərbaycan Gənc Müəllimlər Assosiasiyası, “Çinar Yayımları” nəşriyyatı, Azərbaycan Kitab, Maarif və Poliqrafçılar İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Təhsil Nəşriyyatı və “Everest” nəşriyyat evinin rəsmi tərəfdaşlığı ilə keçirilən forumda 900-dən çox Naxçıvan ibtidai sinif müəllimi iştirak edib.

**“Şərq qapısı”**



# Naxçıvan Muxtar Respublikası
## yeni islahatlar və yeni inkişaf mərhələsində

*Azərbaycan öz quruluşuna görə unitar, demokratik, hüquqi, dünyəvi respublikadır. Dünyanın müxtəlif qitələrindəki bir sıra unitar dövlətlər kimi bizim ölkəmiz də özünün unitar quruluşunun spesifik xüsusiyyətinə malikdir. Bu, Azərbaycanın da tərkibində beynəlxalq təcrübədə kifayət qədər geniş yayılmış siyasi muxtariyyətin mövcudluğudur. Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ölkəmizin digər inzibati-ərazi vahidlərindən fərqli hüquqi-siyasi rejimə malikdir. Lakin dünyanın unitar dövlətlərinin özünüidarəetmə səlahiyyətlərinə malik ərazilərinin təcrübəsindən fərqli olaraq Naxçıvana muxtariyyət statusunun verilməsi onun 1918-1920-ci illərdə ermənilərin tarixi Zəngəzur vilayətinin qərb hissəsini işğal etməsi nəticəsində eksklav (ölkənin əsas ərazisindən aralı olub, bir neçə xarici dövlətin ərazisi ilə əhatə olunmuş qeyri-suveren region) vəziyyətinə düşməsi ilə əlaqədardır. Həm bu tip işğal faktoruna görə, həm də muxtariyyət əhalisinin, demək olar ki, ölkənin əsas əhalisi ilə etnik-milli, dini-konfessial, dil, mədəni və tarixi köklərə görə tamamilə eyniyyət təşkil etməsi baxımından Naxçıvan muxtariyyətinin yaradılması və mövcudluğu dünya təcrübəsi üçün unikal haldır.*

1924-cü il fevralın 9-da yaradılmış Naxçıvan Muxtar Respublikası ötən bir əsrlik dövr ərzində özünün dörd (1926, 1937, 1978, 1998) Konstitusiyasına malik olsa da, daim Azərbaycan Respublikasının yurisdiksiyası altında olmuş, digər siyasi muxtariyyətlərin, demək olar ki, hamısının yaşadığı analoji təcrübədən fərqli olaraq burada heç vaxt separatizm və sesessiya hallarına rast gəlinməmişdir.

Muxtariyyət tarixinin, xüsusən 1990-1993-cü illəri Naxçıvan üçün əlamətdar olmuş, bu mərhələ, bütövlükdə, ölkəmizin siyasi tarixinə qızıl hərflərlə yazılmışdır. Bu, heç şübhəsiz ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1990-cı il iyulun 22-də Moskvadan Naxçıvana gəlişi, burada yenidən aktiv siyasi fəaliyyətə başlaması və muxtar respublikanın qanunverici orqanına rəhbərliyi ilə bağlıdır. Məhz həmin illərdə Ulu Öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Naxçıvanda Azərbaycanın dövlət müstəqilliyinin müjdəçisi sayıla biləcək məşhur 17 noyabr 1990-cı il tarixli qərarlar (Naxçıvan MSSR-in adından “sovet sosialist” sözlərinin çıxarılması, Ali Sovetin Ali Məclis adlandırılması və üçrəngli, ay-ulduzlu Dövlət Bayrağının qəbul edilməsi) qəbul edilmiş, muxtar respublika ərazisinin erməni hərbi təcavüzündən siyasi-diplomatik və hərbi baxımdan uğurlu müdafiəsi, bölgənin sosial-iqtisadi potensialının qorunması işi təşkil edilmiş, burada müstəqillik dövrünün tələblərinə uyğun aqrar islahatların həyata keçirilməsinə başlanılmışdı.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra da muxtar respublika özünün coğrafi-siyasi vəziyyətinə, düşmən tərəfindən blokadaya alınmasına görə ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı ilə əhatə olunmuşdur. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də davam etdirilmişdir. Naxçıvan dövlət başçısının ötən müddətdə imzaladığı Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dörd Dövlət Proqramının hər biri ilə əhatə olunmuş, bundan başqa, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında dörd dəfə ayrıca Prezident Sərəncamı imzalanmış, nəhayət, muxtar respublika sosial-iqtisadi həyatının ayrı-ayrı sahələrinin və onun müxtəlif rayonlarının inkişafı ilə bağlı sənədlər qəbul edilmiş, dövlət büdcəsindən muxtariyyətin büdcəsinə ayrılan illik dotasiyadan əlavə xeyli vəsait yönəldilmişdir. Məhz bu qayğı və diqqətin nəticəsində Naxçıvan Muxtar Respublikasının ağır blokada şəraitində yaşamasına baxmayaraq, əhalinin rifah halının yüksəldilməsinə, bölgədə abadlıq və quruculuq işlərinin həyata keçirilməsinə nail olunmuş, mühüm infrastruktur layihələri həyata keçirilmiş, muxtar respublika ərazisinin tam qazlaşdırılması təmin edilmiş, uzun illərdən sonra enerji təchizatı bərpa olunaraq müntəzəm şəkildə yaxşılaşdırılmış, müasir yollar, sosial infrastruktur obyektləri tikilmiş, yeni müəssisələr və iş yerləri açılmışdır.

Lakin təəssüflər olsun ki, muxtar respublikada 2022-ci ilin sonunadək həyata keçirilən regional siyasət kursu ölkə rəhbərinin ötən dövrdə göstərdiyi bu diqqət və qayğıya adekvat olmamış, 2020-ci ildə Azərbaycanın düşmən üzərində parlaq qələbəsi və ərazi bütövlüyümüzün bərpası ilə başa çatan 44 günlük Vətən müharibəsindən sonra meydana çıxan yeni çağırışlara uyğunlaşa bilməmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2023-cü il iyunun 5-də imzalanan Sərəncamla təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın “Mövcud çağırışlar” adlanan 3.2-ci bölməsində müəyyənləşdirilən perspektiv fəaliyyət imkanları da sübut edir ki, ötən dövrdə regionun mövcud potensialından onun daha sürətli və optimal inkişafının təmin edilməsi üçün tam istifadə olunmamışdır. Təsadüfi deyildir ki, Dövlət Proqramında qeyd edilir: *“2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası ilə yaranmış yeni reallıq Orta Dəhlizin inkişaf perspektivlərini gündəmə gətirməklə, Zəngəzur dəhlizinin açılmasını zəruri etmiş və Naxçıvan Muxtar Respublikasının tranzit potensialını genişləndirmişdir. Naxçıvanda iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu, sosial rifah halının daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi ön plana çıxmışdır... Mövcud potensialdan daha səmərəli istifadə etməklə bölgədə sosial-iqtisadi inkişafın sürətləndirilməsi və davamlılığının təmin edilməsi zəruridir”.*

Məhz buna görə də Naxçıvanda ictimai-siyasi idarəçiliyi sağlamlaşdırmaq, muxtar respublikanın büdcəsindən, o cümlədən dövlət büdcəsindən ayrılan dotasiyadan, habelə Azərbaycan Prezidentinin imzaladığı çoxsaylı sərəncamlarla bölgənin sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi üçün yönəldilmiş əlavə resurslardan bundan sonra səmərəli və şəffaf şəkildə istifadə edilməsi üçün Naxçıvan Muxtar Respublikasının idarəçiliyində islahatların keçirilməsi zərurəti yaranmışdır. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2022-ci il dekabrın 22-də imzaladığı Sərəncamla Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi institutu təsis edilmiş, nümayəndəliyin Əsasnaməsi təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 dekabr tarixli Fərmanının 3.2-ci bəndinə əsasən səlahiyyətli nümayəndə Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikasının Prezidentini təmsil edən vəzifəli şəxsdir və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi səlahiyyətləri həyata keçirir. “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə”nin 1.1-ci maddəsinə görə səlahiyyətli nümayəndəlik Naxçıvan Muxtar Respublikasının ərazisində Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur bölməsidir. Həmçinin 4.4-cü maddəyə əsasən səlahiyyətli nümayəndə, onun müavinləri, səlahiyyətli nümayəndəliyin əməkdaşları Azərbaycan Respublikası Prezident Administrasiyasının əməkdaşlarıdır.

2022-ci il dekabrın 22-də imzalanan daha bir mühüm Fərman Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı idi. Həmin Fərmanla “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin dəyişikliklərdən əvvəlki redaksiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə muxtar respublikadakı yerli icra hakimiyyəti orqanlarının işinin təşkili ilə bağlı verilmiş səlahiyyətlər və nəzarət hüququ ləğv edildi.

Beləliklə, özünün bir əsrlik muxtariyyət tarixində ilk dəfə olaraq Azərbaycan mərkəzi hakimiyyəti muxtar respublikada idarəçilik, xüsusilə icra hakimiyyətinin həyata keçirilməsi sahəsində mühüm institusional islahat həyata keçirdi. Həyata keçirilən siyasi idarəçilik islahatı Azərbaycan Respublikası Konstitusiyasının 99-cu maddəsinin (“İcra hakimiyyətinin mənsubiyyəti”) Naxçıvan Muxtar Respublikasında mərkəzi hakimiyyətin, bilavasitə Azərbaycan Respublikası Prezidentinin nəzarəti altında daha effektiv icrasının təmin edilməsinə yönəlmişdir ki, bu da eyni zamanda qanuna və unitar dövlət anlayışına tamamilə uyğundur. Bundan başqa, dünyada tərkibində siyasi muxtariyyət olan unitar dövlətlərin təcrübəsində dövlətin muxtar qurumda təmsilçilik institutu kifayət qədər yayılmış praktikadır. Fransa, İtaliya, Danimarka, Finlandiya, İndoneziya, Panama və digər ölkələrin tərkibindəki analoji qurumlarda mərkəzi hakimiyyəti təmsil edən səlahiyyətli orqan (şəxs) mövcuddur.

Qeyd edək ki, 2022-ci ilin sonlarında həyata keçirilən bu fundamental islahatdan sonra artıq başa çatmaqda olan 2023-cü ili bir sıra amillərə görə Naxçıvan Muxtar Respublikasında keçid ili adlandırmaq mümkündür. Bir tərəfdən muxtar respublikada hakimiyyətlərin bölünməsi prinsipinə uyğun olaraq icra və məhkəmə hakimiyyətlərinin tam ayrılması işi başa çatdırılmış, digər tərəfdən isə 2023-cü il muxtariyyətdə çox ciddi qüsurların olduğu sosial-iqtisadi sahədə şəffaflığın təmin edilməsi və real inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi dövrü olmuşdur. Bu baxımdan, heç şübhəsiz ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” muxtar respublikanın qarşıdakı illərdə sürətli inkişafında çox mühüm rol oynayacaqdır. Həm, bütövlükdə, Dövlət Proqramı, həm də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı”nda cəmi il yarım (2023-cü ilin ikinci yarısı – 2024-cü il) müddətində nəzərdə tutulmuş tədbirlər sübut edir ki, muxtar respublika ən yaxın gələcəkdə sürətlə müəyyənləşdirilmiş inkişaf perspektivinə nail olmaqla, özünün eksklav coğrafi vəziyyətinə rəğmən, ölkənin sosial-iqtisadi həyatına sürətlə üzvi şəkildə inteqrasiya edəcək və Azərbaycanın sosial-iqtisadi baxımdan ən çox inkişaf etmiş iqtisadi rayonlarından birinə çevriləcəkdir.

**Elman CƏFƏRLİ**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Humanitar siyasət komitəsinin sədri, YAP Naxçıvan şəhər təşkilatının sədri***

# Lider qızlar Naxçıvanda!









*“Heydər Əliyev İli” çərçivəsində “Azərbaycan Uşaqları” İctimai Birliyinin təşkilatçılığı ilə “Yeniyetmə qızların liderlik və motivasiya məktəbi” layihəsinin açılış mərasimi Naxçıvanda baş tutub.*

Layihə çərçivəsində “Azərbaycan Uşaqları” İctimai Birliyinin sədri Kəmalə Ağazadə, onun nümayəndə heyəti və Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzində reabilitasiya keçən 11 nəfərdən ibarət həssas qrupdan olan lider qızlar Naxçıvana səfər edib.

Əvvəlcə heyət üzvləri və həssas qrupdan olan lider qızlar müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, Ulu Öndərin xatirəsini dərin ehtiramla yad edib. Sonra onlar Heydər Əliyev Muzeyi ilə tanış olub. Muzeyə gələn qonaqlar Ümummilli Liderin həyat və fəaliyyətinə aid fotoşəkil və eksponatlarla tanış olub. Ulu Öndərin hər kəsə örnək olan çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən həyatının Naxçıvan mərhələsi haqqında qonaqlara ətraflı məlumat verilib. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində qonaqlarla görüş olub. Komitənin sədri tərəfindən uşaqlarla motivasiya xarakterli söhbət aparılıb, onların sualları cavablandırılıb.

Qonaqlar Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda birliyin üzvü, rəssam Tapdıq Həmzəyevin rəsm əsərlərindən ibarət sərgiyə baxıblar.

Sonra qızlar Naxçıvan STEAM Mərkəzində olublar. Mərkəzdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfovla görüşüb, qızlar gələcək planları, hədəfləri barədə danışıblar. Sonra mərkəzlə tanışlıq olub.

**Gülcamal TAHİROVA**

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



**Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz.**

## Biz gənclərin əsas missiyası ölkəmizi xaricdə layiqincə təmsil etməkdir



*“Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq” rubrikasının növbəti qonağı hazırda Budapeşt Texnologiya və İqtisadiyyat Universitetində doktorantura təhsili alan, Baker Hughes-da maliyyə mütəxəssisi kimi çalışan **Xudayar Lətifov**dur.*

1999-cu ildə Ordubad şəhərində anadan olan Xudayar xaricdə yaşamaq, təhsil almaq, eyni zamanda dünyanın müxtəlif yerlərində olan azərbaycanlıların həmrəyliyi, birliyi ilə bağlı düşüncələrini bölüşdü:

– Macarıstanın paytaxtı Budapeşt şəhərində yaşayıram. Burada doktorantura təhsilimi davam etdirirəm, eyni zamanda ixtisasımla əlaqəli maliyyə sahəsində çalışıram. Hər il burada 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü azərbaycanlı qardaş və bacılarımızla birlikdə təntənəli şəkildə qeyd edirik.

Macarıstana gəldiyim zamanı xatırlayıram. Xarici ölkəyə alışmaq, buradakı şəraitə uyğunlaşmaq, doğma Vətəndən kənarda yaşamaq çətin olsa da, zamanla alışmağa başladım. Bu uyğunlaşma prosesində, əlbəttə, öz yerli azərbaycanlı dostlarımın, yoldaşlarımın köməyini unutmaram. Hər dəfə yeni xarici dostlarla yanaşı, azərbaycanlı dostlar tanıdıqca, artıq bura mənə heç də evimdən kənar bir yer kimi gəlmirdi. Ümumiyyətlə, insan harada olursa-olsun, öz doğma yurdunun insanını gördüyü zaman sanki öz evində hiss edir.

Zaman keçdikcə yerli təşkilatlarla, diaspor ilə maraqlanan və təşkil olunan hər bir tədbirdə yaxından iştirak edən Xudayar dedi:

– Biz gənclərin əsas missiyası ölkəmizi xaricdə layiqincə təmsil etmək olduğu üçün hamımız bu kimi tədbir və təşkilatlarda iştirak etməkdə qürur duyuruq. Belə tədbirlərə nümunə olaraq qeyd edə bilərəm ki, bu il Avstriyanın Vyana şəhərində xaricdə yaşayan azərbaycanlılarla birlikdə Xocalı soyqırımının 31-ci ildönümü ilə bağlı keçirilən aksiyada iştirak etdik, günahsız qurbanlara ədalət çağırışını həmişəki kimi bütün dünyaya çatdırdıq. İyun ayında Budapeştdə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konsert maraqlı keçdi. Macarıstanın məşhur “Szolnok” simfonik orkestri tanınmış azərbaycanlı dirijor Yalçın Adıgözəlovun rəhbərliyi ilə Azərbaycan bəstəkarları Qara Qarayev, Fikrət Əmirov, Niyazi və Asəf Zeynallının, macar bəstəkarı Bela Bartokun, eləcə də italyan klassiki Cakomo Puççininin əsərlərini böyük ustalıqla ifa etdi.



Noyabrın 8-də biz azərbaycanlı gənclər Zəfər Gününə həsr olunmuş ənənəvi “Victory Hiking” yürüşündə bu qürurverici tarixi günü birlik və qələbə ruhu ilə qeyd etdik. Yürüş zamanı Şuşanın əkiz şəhəri adlandırılan Gyöngyösi şəhərində yerləşən ölkənin ən hündür zirvəsi olan Keşkeş zirvəsinə qalxdıq. Bu kimi tədbirlərdə iştirak etmək harada olmağımızdan asılı olmayaraq, biz azərbaycanlıların yalnız bir gün yox, hər zaman həmrəy olmasının təcəssümüdür.



Xudayar sonda bütün Azərbaycan xalqının və dünya azərbaycanlılarının bayramını təbrik edib, xalqımızı daim bir, həmrəy görməyi arzuladı.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## *“Qrant layihələrin yazılması və idarəolunması”* adlı ikigünlük təlim baş tutub



Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun təşkilatçılığı ilə Naxçıvan Gənclər Mərkəzində ali təhsil müəssisələrinin tələbələri üçün “Qrant layihələrin yazılması və idarəolunması” adlı ikigünlük təlim təşkil olunub.

Təlimin ilk modulunda fondun Gənclər təşkilatları və gənclərlə iş şöbəsinin müdiri Arzu Qasımov tərəfindən layihə ideyasının tapılması, problemin müəyyən olunması, layihələrdə büdcə planlama, layihə yazılışı və idarəçiliyindən məlumat verilib və gənclərin sualları cavablandırılıb. Həmçinin Azərbaycan Respublikası Gənclər Fondu tərəfindən elan olunan “İdeyanı Reallaşdır-2023” qrant müsabiqəsinə müraciət etmək istəyən gənclərə layihənin hazırlanması zamanı diqqət edilməli məqamlar və müsabiqə qaydaları izah olunub.

Təlimin ikinci modulunda gənclər onlayn formada Çanaqqala On Səkkiz Mart Universiteti Elm və Texnologiya Tətbiq və Araşdırma Mərkəzinin “Əsas layihə hazırlığı” təlimində iştiraka cəlb ediliblər. Daha sonra onlar praktiki olaraq layihələrini hazırlayıb və Azərbaycan Respublikası Gənclər Fondu tərəfindən elan olunan “İdeyanı Reallaşdır-2023” qrant müsabiqəsinə təqdim ediblər.

İkigünlük təlimin sonunda Çanaqqala On Səkkiz Mart Universiteti Elm və Texnologiya Tətbiq və Araşdırma Mərkəzinin onlayn təlimini uğurla başa vuranlara iştirak sertifikatları təqdim olunub.

**Xəbərlər şöbəsi**

*Dekabr ayı ərzində qəzetimizdə “Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq” rubrikası ilə dərc olunan bir-birindən maraqlı, oxucularımızı qısa tarixi keçmişə qaytaran yazıları oxuduqca özüm də şahidi olduğum, o vaxt gördüklərimi qələmə aldığım hadisələri bir daha xatırlayıram...*




## *O gün tariximizin qızıl səhifələrindən biri yazılırdı*

O gün havanın da rəngi dəyişmişdi elə bil. Heç qış havasına oxşamırdı. Uzun illərin ayrılığından sonra birliyə gedən yollarda cəsarətli bir addım atan xalqın zəkası qarşısında sanki o da gücsüzlüyünü hiss edərək “yumşalmışdı”, tikanlı sərhədlərə – Araz qırağına axışan insan selinin qəzəbinə tuş olmaqdan qorxurdu elə bil. Ya o da insanların bu haqq işinə öz köməyini belə göstərirdi, ya da bizə elə gəlirdi ki, hava da istidir, soyuq dekabr Günəşinin şüaları yerə ılıq bir hərarət verirdi...

O gün tariximizin qızıl səhifələrindən biri yazılırdı...

...Araz qırağı yaşayış məntəqələrindən aralıda yaşayan insanlar belə axın-axın tikanlı məftillərlə sərhədlənmiş, bizi o taya həsrət qoymuş, məhzun görkəmli Araza doğru axışırdılar – sanki Araz da səhvini başa düşmüşdü, sakit-sakit axmağa başlamışdı; elə bil buralarda bir belə adam gördüyündən xoflanmışdı Araz.

İnsan seli Araz qırağına axışmaqda idi... Bu insanların çöhrələrində təbəssüm, gözlərinin dərinliyində uzaqlara dikilmiş bir nigarançılıq vardı: doğrudanmı, sökəcəyik o tikanlı məftilləri? Qoyarlarmı? Uzun illərin içlərdə qaysaq bağlamış yarası bu inamsızlığa qarşı çıxırdı.

*Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,*

*Qolumdakı zənciləri qıram gərək, qıram-qıram,* – istəyi arzusu, hökmü ürəklərə hakim kəsilmişdi.

...Bir neçə gün sonra “Qardaşlıq. Bərabərlik. Sülh” dünyasının paytaxtı Moskva televiziyasının “Zaman” xəbərlər proqramında belə şou-xəbərlər efirə çıxacaqdı: Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında yaşayan bir qrup ekstremist dövlət sərhədlərini dağıdıb. Bu, SSRİ Konstitusiyasına qarşı çıxmaq, sərhədlərimizin toxunulmazlıq hüququnu tapdalamaq deməkdir. Onlar SSRİ qanunları ilə mühakimə olunmalıdırlar (SSRİ-nin “bu humanist qanunları” isə 70 il idi ki, Azərbaycanın əleyhinə işləyirdi).

“Bu qanunazidd hərəkət” o vaxt baş vermişdi ki, həmin “Zaman” xəbərlər proqramı uzun illər birbirindən ayrı düşmüş Pribaltika respublikaları vətəndaşlarının üzlərinə bağlanmış sərhədləri dağıdaraq sevincdən göz yaşı tökmələrini, həmin sərhədlərdə bir-birinə qovuşan insanların bu sevincini, onların birləşmək arzularının həyata keçməsini alqışlayırdı...

İstər-istəməz düşünməli olursan: Onların bu hərəkətlərinə çox yüksək qiymət verildiyi halda naxçıvanlılar nə üçün eyni hüquqdan istifadə edəndə ekstremist oldular?

...Bu da var ki, birləşmək, bir olmaq, öz gücünü dünyaya göstərmək amallı insanlar, gördükləri işin haqq işi olduğuna əmindirlər.

...Tariximizə qızıl hərflərlə daha bir gün yazılmaqdaydı: 31 dekabr.

Taleyin hökmündən dünyanın hər yerinə səpələnmiş 50 milyondan çox azərbaycanlının birləşmək arzuları çin olurdu o gün. Sevincdən doğan göz yaşları qəmli-qəmli axan Araza qovuşurdu... Arazı günahkar sayan insanlarsa bir-birinə. O gün üzlərə sevinc qonmuşdu, çöhrələr də sanki işıqlanmışdı.

Bəşər cəmiyyəti yaranandan insan adlı varlığın bu təbii arzusu, bu yolda uzun mübarizələr keçməsi həqiqəti bütün zamanlara aiddir. Çünki birliyə gedən yol əbədi yoldur. Bu yolun çətinlikləri, ağrıları, əzabları mənəvi ucalıq, özünüdərk yolunda fədailikdir.

Öz anasından cismən ayrı düşmüş qədim Naxçıvan bu yolun beşiyinə çevrildi. Arzumuz bu qədim torpaqda çin oldu – doğuldu, böyüdü.

O günü xatırlayıram. Bir vaxt quş quşluğu ilə qona bilməyən sərhəd dirəkləri, tikanlı məftillər, 70 il özümüzü özümüzdən qoruyan sərhəd zolağı... Və özündə qüvvə taparaq həmin tikanlı məftillərə, sərhəd dirəklərinə qarşı üsyan edən insanların Arazdan su götürərək bir-birini sulamaqları yadıma düşür. Ogünkü sevinci bir daha yaşayıram.

Mənzili çox uzaqlardan başlayan arzumuzun həyata keçməsindən, ülvi bir istəyin gerçəkləşdiyi gündən illər keçir. Sərhəd dirəkləri yoxdur daha. O dirəklər dağılan günün şərəfinə – 31 dekabr dünyanın müxtəlif yerlərində yaşayan “Azərbaycanlıların Həmrəylik Günü” kimi tarixə düşüb. Yer kürəsinin bütün qitələrində bu gün Azərbaycan diasporları fəaliyyət göstərir. Vətən, torpaq, yurd təəssüblü həmyerlilərimiz bu diasporla Azərbaycan həqiqətlərini dünyaya çatdırırlar. Elə söhbətimizin əvvəlində dediyim və qəzetimizdə gedən yazılarda da bunu görür və qürur hissi keçiririk.

✍ **Muxtar MƏMMƏDOV**

### *İtmişdir*

Hüseynova Aminə Ramiz qızının adına verilmiş Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 000160 nömrəli internatura sənədi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Düdəngə kənd sakini İbrahimov İbrahim Rəsul oğlunun adına verilmiş JN-195[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Əbrəqunus kənd sakini Məmmədov Alı Mustafa oğlunun adına olan fərdi yaşayış evinin 3543 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Unus kənd sakini İsgəndərova Gülsəfa Hüseyn qızının adına olan JN-199[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Bülbül Quliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 742